# TRT radiosunda musiqi albomu təqdim olunub




**Türkiyə və Azərbaycanın "bir millət, iki dövlət" fəlsəfəsi yalnız siyasi müstəvidə deyil, eyni zamanda mədəniyyət, sənət və musiqi platformalarında da öz təcəssümünü tapır. Bu qardaşlığın musiqi sədaları bu dəfə "TRT TÜRKÜ" kanalının efirində səslənib. 28 May - Azərbaycanın Müstəqillik Günü münasibətilə xüsusi olaraq tərtib edilən və xalqımızın milli musiqi irsinə həsr olunmuş musiqi albomu efirdə yayımlanıb.**

Xatırladaq ki, 2018-2023-cü illərdə Türkiyə telekanallarında Azərbaycan mədəniyyətini, tarixini, coğrafiyasını təbliğ edən "Azərbaycan rüzgarı" proqramı artıq "TRT TÜRKÜ" radiosunda yayımlanır. Həftənin hər bazar günü yayımlanan proqramda Azərbaycanın Xalq mahnıları və muğamları səsləndirilir.

Proqram çərçivəsində Azərbaycan ədəbiyyatından şeirlər oxunur, valehedici coğrafiyamız və zəngin mədəniyyətimiz haqqında məlumat verilir, tarixi günlərimiz qeyd edilir. "Azərbaycan rüzgarı" proqramı vasitəsilə korifey sənətçilərimiz, ustad xanəndələrimiz və musiqiçilərimizin ifaları radio dinləyicilərinin ruhunu oxşayır.

Azərbaycan musiqisinə ayrılan xüsusi efir vaxtı həm də mədəniyyət diplomatiyasının bir forması kimi dəyərləndirilir. Mədəni əlaqələr bəzən siyasətin edə bilmədiyi körpüləri qurur, xalqları bir-birinə daha da yaxınlaşdırır.

Bu baxımdan, "TRT İstanbul" radiosunun "TRT TÜRKÜ" kanalında yayımlanan "Azərbaycan rüzgarı" verilişinin budəfəki proqramı 28 May - Müstəqillik Gününə həsr olunub. Proqramda dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arazbarı" və istiqlal şairi Əhməd Cavadın "Azərbaycan" şeri səsləndirilib.




Verilişdə Azərbaycanın keçdiyi müstəqillik yolu haqqında geniş məlumat verilib, bu gün dünya səhnəsinin ən önəmli aktorlarından birinə çevrildiyi vurğulanıb. Proqram çərçivəsində Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə "Azərbaycan rüzgarı-2" rəqəmsal musiqi albomunun təqdimatı olub.

Qeyd edək ki, "Azərbaycan rüzgarı" proqramının əsas hədəflərindən biri Türkiyədə milli mədəniyyətimizi, ədəbiyyatımızı, xüsusilə UNESCO-nun Dünya Mədəni İrsi Siyahısında yer alan milli musiqi alətlərimizi təbliğ etməkdir. Azərbaycan Diasporuna Dəstək Fondunun töhfələri ilə Azərbaycan muğamlarından və Xalq mahnılarından ibarət rəqəmsal musiqi albomu hazırlanıb. Albomda yer alan musiqi əsərləri azərbaycanlı tarzən, Türkiyənin Qazi Universitetinin doktorantı Pərviz Musayev tərəfindən ifa edilib. Albomda muğamlar və "Laçın", "Azərbaycan maralı", "İrəvanda xal qalmadı", "Tellərini yan dara qız" Xalq mahnıları yer alıb.

Musiqinin müşayiəti ilə Səidə Ömər tərəfindən Mikayıl Müşfiqin "Oxu tar" və Rəsul Rzanın "Mən torpağam" şeirləri səsləndirilib.

Layihənin həyata keçirilməsi üçün Azərbaycan Diasporuna Dəstək Fonduna təşəkkürünü ifadə edən Səidə Ömər bildirib ki, fond Türkiyənin fərqli televiziya kanallarında yayımlanan "Azərbaycan rüzgarı" proqramına dəstəyini əsirgəməyib. Hazırlanan albomun fond tərəfindən "TRT İstanbul" radiosu arxivinə hədiyyə edilməsi nəzərdə tutulub.

**E.ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 27 may (№109).-